

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 26 may 2021-ci il №40 (2548) https://mod.gov.az Qiyməti 30 qəpik


*28 May - Respublika Günüdür*

## Tariximizin ən şanlı, ən parlaq səhifəsi



***Qədim və zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycanda xalqımız azadlığı və müstəqilliyi uğrunda daim mübarizə aparıb. Bu mübarizə çətin sınaqlarla, tarixin dirənişləri ilə də üzləşib. Gülüstan müqaviləsi ilə ikiyə bölünən Azərbaycanda milli-azadlıq hərəkatı heç zaman səngiməyib. Bu mübarizənin məntiqi nəticəsi olaraq 1918-ci ilin 28 mayında İstiqlal Bəyannaməsi imzalandı, Azərbaycan dövlətçiliyi yenidən tarixin səhifələrinə qayıtdı - Azərbaycan Xalq Cümhuriyyəti quruldu.***

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması Azərbaycanın həyatına böyük tarixi hadisə kimi daxil oldu. Xalq Cümhuriyyəti özünün dövlətçilik əsasları və demokratik islahatları ilə müsəlman Şərqinin ilk demokratik dövlət təsisatı oldu. Müstəqil, demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu təsdiqlədi.

1918-ci il mayın 28-də Tiflisdə, Qafqaz canişininin iqamətgahında tarixi iclas keçirildi. Milli Şura 24 nəfər lehinə, 2 nəfər bitərəf qalmaqla Azərbaycanın müstəqilliyi haqqında İstiqlal Bəyannaməsini qəbul edərək, Azərbaycanın müstəqilliyini rəsmi olaraq elan etdi. İstiqlal Bəyannaməsinin qəbul olunması ilə Azərbaycanda müstəqil dövlət, Cümhuriyyət yaranması dünyaya bəyan edildi. Müstəqilliklərini elan edən Azərbaycan, Gürcüstan və Ermənistan nümayəndələri Batumda Osmanlı dövləti ilə danışıqlar apararaq, 1918-ci il iyunun 4-də ayrı-ayrı müqavilələr imzaladılar. Azərbaycanla bağlanan Dostluq və Əməkdaşlıq Müqaviləsini Azərbaycan tərəfdən Milli Şuranın sədri Məmməd Əmin Rəsulzadə və Xarici İşlər naziri Məmməd Həsən Hacınski imzaladı. Azərbaycanın müstəqilliyini ilk tanıyan Türkiyə ilə imzalanan müqavilənin üçüncü maddəsi Azərbaycanın torpaq və ərazi bütövlüyünü, dördüncü maddəsi isə Türkiyənin Azərbaycana siyasi və hərbi köməyini əhatələyirdi.

AXC dövründə milli dövlətçiliyin əsaslarının gücləndirilməsi istiqamətində də strateji əhəmiyyətli addımlar atıldı. Cümhuriyyət parlamenti milli dövlətçiliyin gücləndirilməsi nöqteyi-nəzərindən böyük əhəmiyyət daşıyan - xalq maarifinin inkişafına çox mühüm təkan verən vəzifələrdən birini reallaşdırdı. Ali qanunverici orqan tərəfindən qəbul edilən 1918-ci il 27 iyun tarixli qərara əsasən Azərbaycan dili dövlət dili elan olundu.

1918-ci il iyunun 26-da "Azərbaycan Milli Ordusunun yaradılması haqqında" qanun, sentyabrın 1-də Hərb Nazirliyinin yaradılması ilə əlaqədar qərar qəbul olundu. Dekabrın 25-də general Səməd bəy Mehmandarov hərb naziri, general Əlağa Şıxlinski hərb nazirinin müavini, general Süleyman Sulkeviç baş qərargah rəisi təyin edildi. 1920-ci ilin yanvarında ordu quruculuğu işi tamamlandı və 30 mini piyada, 10 mini süvari olmaqla, 40 min nəfərlik nizami ordu yaradıldı.

Azərbaycan dinc, mədəni, çoxmillətli və çoxmədəniyyətli bir cəmiyyət kimi Cümhuriyyət dövründə də multikultural dəyərləri qoruyub və qanunla dəstəkləyib. 1919-cu il iyulun 21-də Azərbaycan Parlamenti "Azərbaycan Respublikasının Müəssislər Məclisinə Seçkilər Haqqında Əsasnamə"ni təsdiq etdi. Əsasnamə 4 fəsildən, 116 bənddən ibarət idi. Əsasnaməyə əsasən, Müəssislər Məclisinə seçkilərdə dinindən, cinsindən, milliyyətindən asılı olmayaraq 20 yaşına çatmış bütün Azərbaycan vətəndaşları iştirak edə bilərdilər. Hökumətin qəbul etdiyi qərar ilə Azərbaycan qadını dövlət idarəçiliyinə cəlb olundu. Türk dünyasında və müsəlman aləmində ilk dəfə qadınlara seçmək və seçilmək hüququ verən ölkə də məhz Azərbaycan oldu. Bu, dünya tarixi üçün mühüm hadisə idi.

**(Ardı 4-cü səhifədə)**



"Ehtiyat zabit hazırlığı kursu"nun buraxılış mərasimi keçirildi

5-ci səhifədə



"Həsrətlə baxdığımız torpaqlarımızda xidmət edirik"

6-cı səhifədə




Şuşa: Mədəniyyətimizin və Qələbəmizin simvolu

7-ci səhifədə



Azərbaycan Ordusunda hərbi beşnövçülük yarışları keçirilib

8-ci səhifədə

# Müdafiə Nazirliyinin məlumatı

Ermənistan Müdafiə Nazirliyi Ermənistan-Azərbaycan dövlət sərhədində Azərbaycan Silahlı Qüvvələrinin bölmələri tərəfindən Ermənistanın Geğarkunik rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi ərazisindəki mövqelərinin guya Kəlbəcər rayonu ərazisindən atəşə tutulması barədə növbəti dəfə yalan məlumat yayıb.

Mayın 25-də günorta saatlarında Ermənistan silahlı qüvvələrinin şəxsi heyətlə dolu yeddi yük maşını sərhədin qeyd olunan sahəsinə yaxınlaşmağa cəhd edib. Bölmələrimiz tərəfindən görülən xəbərdarlıq tədbirləri nəticəsində qarşı tərəfin hərəkətinin qarşısı alınıb.

Birmənalı şəkildə bildiririk ki, bölmələrimiz tərəfindən qarşı tərəf istiqamətində heç bir atəş açılmayıb.

Sərəncamımızda olan məlumata əsasən erməni hərbi qulluqçusunun ölümü ilə bağlı insident bədbəxt hadisə nəticəsində baş vermişdir. Bu hadisənin Azərbaycan tərəfi ilə hər hansı bir əlaqəsi yoxdur.

Bildiririk ki, Azərbaycan tərəfi məsələ ilə əlaqədar Rusiya tərəfi ilə də daimi təmasdadır.

# Azərbaycan və Türkiyə hərbçilərinin iştirakı ilə taktiki təlim keçirilib



2021-ci il üçün birgə fəaliyyət planına əsasən Azərbaycan və Türkiyə hərbçilərinin iştirakı ilə taktiki təlim keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Ordusunun ümumqoşun poliqonunda keçirilən təlimin əsas məqsədi iki ölkə ordularının bölmələrinin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi və döyüş qabiliyyətinin yüksəldilməsi, əməliyyat bölmə komandirlərinin hərbi qərar qəbuletmə, təşəbbüs göstərmə və idarəetmə bacarıqlarının inkişaf etdirilməsidir.

Təlim zamanı xüsusi qruplar sutkanın müxtəlif vaxtlarında gizli yollarla şərti düşmənin müdafiəsinin dərinliyinə sızmaq, komanda məntəqəsi və hərbi təyinatlı obyektləri ələ keçirmək üzrə tapşırıqları yerinə yetiriblər.

Məşğələlərdə əsas diqqət gizli hərəkətin təşkilinə, diversiya qruplarının məhv edilməsinə, düşmən təxribatlarının qarşısının alınmasına və antiterror əməliyyatlarının xüsusiyyətlərinin öyrənilməsinə yönəldilib.

# Naxçıvan Qarnizonu Qoşunlarında komanda-qərargah təlimi davam edir



Naxçıvan Qarnizonu Qoşunlarında mayın 17-də başlayan komanda-qərargah təlimi davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimin növbəti mərhələsində qoşunların fəaliyyətləri ilə bağlı verilən tapşırıqlar səhra idarəetmə məntəqələrində xəritələr üzərində işlənilib, qəbul edilmiş qərarlar rabitə və avtomatlaşdırılmış idarəetmə sistemləri vasitəsilə praktiki fəaliyyətlərə cəlb olunmuş bölmələrə çatdırılıb.

Qoşunların cəmləşmə rayonlarında, atəş və start mövqelərində yerləşməsi, eləcə də döyüş fəaliyyətlərinin gedişi zamanı artilleriya bölmələrinin ümumqoşun birləşmələri ilə qarşılıqlı fəaliyyəti praktiki olaraq məşq etdirilib.

Ordu aviasiyasının havadan himayəsilə taktiki desantın düzən əraziyə və çətin relyefə malik hakim yüksəkliyə çıxarılması həyata keçirilib. Kəşfiyyat və xüsusi təyinatlı bölmələr çətin dağ şəraitində diversiya-təxribat xarakterli fəaliyyətləri icra ediblər.

# KİV nümayəndələri üçün mühəndis texnikası ilə tanışlıq məqsədilə media-tur təşkil edilib



***Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Ordusunun Mühəndis Qoşunlarının maddi-texniki təminatının yaxşılaşdırılması istiqamətində aparılan işlər davam etdirilir. Bu məqsədlə Türkiyə Respublikasından alınan müasir tələblərə cavab verən mühəndis texnikası və avadanlıqları Azərbaycan Ordusunun arsenalına qəbul olunur.***



Azad edilmiş ərazilərimizin minalardan təmizləmə işlərinin sürətləndirilməsi və təhlükəsizlik tədbirlərinin gücləndirilməsində istifadə olunan yeni texnika və avadanlıqlarla tanışlıq məqsədilə mayın 25-də kütləvi informasiya vasitələri (KİV) nümayəndələri üçün media-tur təşkil olunub.

Media nümayəndələrinə mühəndis-istehkam bölmələri tərəfindən müasir texnika və avadanlıqlardan istifadə etməklə ərazilərin minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsi işləri praktiki nümayiş etdirilib.

Yeni texnika və avadanlıqların dərindən öyrənilməsi və bacarıqla istifadə edilməsi məqsədilə hərbi qulluqçuların kurslara cəlb olunması barədə də media nümayəndələrinə ətraflı məlumat verilib.

Sonda kursu müvəffəqiyyətlə bitirən hərbi qulluqçulara müvafiq sertifikatlar təqdim edilib.

# Azərbaycan HDQ-nin gəmi heyətləri döyüş atışları icra edib



2021-ci il üçün döyüş hazırlığı planına uyğun olaraq, Hərbi Dəniz Qüvvələrinin (HDQ) gəmiləri Xəzər dənizinin Azərbaycan Respublikasına aid sektorunda yerləşən dəniz poliqonunda döyüş atışları icra edib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, gəmilər arasında qarşılıqlı fəaliyyət və əlaqənin təşkili elementləri də məşq etdirilib.

# "Anatolian Phoenix-2021" beynəlxalq təlimi başlayıb




Türkiyə Respublikasının Konya şəhərində yerləşən aviabazada müxtəlif ölkələrin hərbçilərinin iştirakı ilə "Anatolian Phoenix-2021" beynəlxalq axtarış-xilasetmə təlimi başlayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə təlimin planlaşdırılması, ona hazırlıq prosesi, mərhələlər üzrə icra olunan tapşırıqlar barədə ərazinin maketi üzərində ətraflı brifinq təqdim olunub.

Qeyd edək ki, Azərbaycan Ordusu təlimdə Hərbi Hava və Hərbi Dəniz Qüvvələrinin hərbi qulluqçuları ilə təmsil olunur.

Təlim iyunun 4-dək davam edəcək.

Döyüş hazırlığı

# Hərbçilərimiz bizə Qələbə sevinci yaşatdılar



***Azərbaycan Ordusunda mühüm yer tutan məsələlərdən biri də şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsidir. Qoşunların hərbi əməliyyatlar zamanı düşmənə üstün gəlməsi üçün lazım olan bilik və vərdişlərin aşılanması döyüş hazırlığının əsasını təşkil edir. Şəxsi heyətin yüksək döyüş hazırlığına malik olması, şübhəsiz ki, qələbəyə təminatdır. Vətən müharibəsində ordumuzun döyüş hazırlığının yüksək səviyyədə olması 44 gün ərzində düşmən ordusunu məhv etməsi ilə nəticələndi. İllərdir düşmən işğalında qalmış doğma torpaqlarımız cəsur zabitlərimizin, əsgərlərimizin, bir sözlə, yüksək döyüş hazırlığına malik hərbçilərimizin qəhrəmanlığı sayəsində azad olundu. Məhz onlar xalqımıza Qələbə sevinci yaşatdılar.***

"N" hərbi hissəsində şəxsi heyətin döyüş hazırlığı məşğələsini izlədik. Artilleriyaçılar dərs cədvəlinə uyğun olaraq müxtəlif döyüş tapşırıqlarını məşq edirdilər. Geniş ərazidə təlim keçən topçularımız müəyyən olunmuş müxtəlif döyüş tapşırıqlarını məşq edir, təcrübə və səriştələrini artırırdılar.

Məşğələ rəhbəri leytenant Həmid Məmmədli bildirdi ki, düşmən üzərində zəfər qazansaq da, igid, mərd və cəsur oğullarımız daima öz üzərlərində çalışır, hərbi biliklərini artırırlar. "Gördüyünüz əsgərlər nümunəvi xidmətləri ilə seçilir. Hər birinin döyüş, atəş, fiziki və mənəvi-psixoloji hazırlığı olduqca yüksək səviyyədədir. Hazırda şəxsi heyət lazımi normativləri yerinə yetirir."

Şəxsi heyətin hazırlığından söz açan Həmid Məmmədli qeyd etdi ki, bu gün orduda xidmət edən əsgərlərin döyüş və mənəvi-psixoloji hazırlığı ilə peşəkar zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları məşğul olurlar. "Bu səbəbdən də şəxsi heyət qarşıya qoyulan bütün tapşırıqları uğurla icra etməyə qadirdir. Plana uyğun olaraq təlimlər keçirilir. Təlimlərdə əsgərlərimiz yüksək peşəkarlıq nümayiş etdirirlər. Müxtəlif məsafələrdən atəş açmağı mənimsəyirlər. Onlar verilən şərti koordinatları tuşlayaraq topu döyüşə hazır vəziyyətə gətiriblər və məşğələ rəhbərindən "atəş" əmrini gözləyirlər. Cəld və qısa bir zamanda komandanı icra etmələri onların təcrübəli və hazırlıqlı olduqlarından irəli gəlir."

Zabit onu da bildirdi ki, hərbi sirləri şəxsi heyətə öyrətmək üçün məşğələnin hər dəqiqəsindən səmərəli istifadə etməyə çalışırıq. "Öncə onlara dərslərin mövzusu barədə nəzəri olaraq məlumat veririk. Sonra isə şəxsi heyət nəzəri biliklərini əməli olaraq həyata keçirir. Verilən komandalar üzrə fəaliyyətə başlayırlar."

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Anar Əsgərli bildirdi ki, dağlıq və düzənlik ərazilərdə keçirilən praktiki məşqlərə cəlb olunan şəxsi heyət onlara təhkim olunmuş döyüş texnikası ilə şərti düşmənin yüksəkliklərdə, yamaclarda, təpələrin arxasında yerləşən canlı qüvvəsini, döyüş texnikasını məhv etmək və motoatıcı bölmələrin atəş dəstəyini təmin etmək tapşırıqlarını yerinə yetirir. "Keçirilən məşqlərdə bölmələrin "döyüşə" və "səfərə" düzülüşü, hədəflərin təyin edilməsi, atış ərazisinin seçilməsi, mövqenin dəyişdirilməsi və xüsusi hazırlıq üzrə normativlər icra edilir. Məşğələlərin və təlimlərin əsas məqsədi əsgərlərin praktiki vərdişlərinin təkmilləşdirilməsindən, eləcə də ağır şəraitdə aparılan müasir döyüş hazırlığının səviyyəsinin artırılmasından ibarətdir."

Əsgərlərimizlə söhbət zamanı üzlərindəki ifadələrdən qalib ordunun əsgəri olmaqdan qürur hissi keçirdiklərini hiss etməmək mümkün deyildi. Onların məğrur baxışları insanı fərəhləndirirdi. Əsgər Sərhad Abışov bildirdi ki, dərslər yüksək səviyyədə keçirilir. "Komandirlərimizin sayəsində topun bütün sirlərinə yiyələnmişik. Heç bir çətinlik çəkmədən istənilən komandanı icra edə bilərik. Qazandığımız uğurlara görə komandir heyətimizə borcluyuq. Onlar bizi döyüşçü kimi yetişdiriblər. Gündəlik dərslərin və keçirilən təlimlərin nəticəsidir ki, ordumuz düşmən üzərində böyük qələbə qazandı. Açılan dəqiq atəşlərlə düşmənin döyüş texnikaları, hərbi hissələri və canlı qüvvəsi məhv edildi. Biz hər zaman torpaqlarımızın müdafiəsində dayanmağa hazırıq."

- Hərbi xidmətimi başa vurmağa az qalıb, ancaq istəyirəm ki, orduda qalıb komandirlərimizlə çiyin-çiyinə vətənimizin müdafiəsində olan hərbçi kimi həyatıma davam edim. Hərbi xidmət həyatımda bir məktəb oldu, həm döyüşçü olmağımın, həm də gələcək müstəqil həyatda yaşamağımın sirlərini öyrəndim, - deyə hərbi xidmətə Bərdə rayonundan çağırılan əsgər Elçin Mustafayev orduda keçirdiyi günlərin dəyərindən, təlim və məşğələlərdə peşəkarlıq qazanmasından danışdı.

Söhbətimizə qoşulan əsgər Fərid Manafov dedi ki, keçirilən dərslər və təlimlər onların peşəkar hərbçi kimi formalaşmasında mühüm yer tutur. "Hərbi xidmət hər birimiz üçün əhəmiyyətli bir dövrdür və bu dövrdə döyüşçüyə xas olan vacib vərdişləri mənimsəyirik, həmçinin bir çox mənəvi keyfiyyətlərə alışırıq. Keçirilən dərslərdə komandirlərimizin öyrətdiklərini mənimsəyir, təlimlər zamanı bildiklərimizi və öyrəndiklərimizi nümayiş etdiririk. Mən və əsgər yoldaşlarım çox sevinirik ki, qalib orduda xidmət edirik. Qürurlanıram ki, illərdir həsrətini çəkdiyimiz doğma torpaqlarımızın azadlığı xidmətim dövrünə təsadüf etdi. Qalib ordunun əsgəri olaraq ailəmin yanına qayıdacağımdan çox fərəhlənirəm."

Əsgər Rövşən Dadaşov da qeyd etdi ki, hərbi xidmət onlardan intizamlı olmaq, hərbi sirri qoruyub saxlamaq, dözümlülük, cəsarət tələb edir. "Bura hər birimiz üçün bir məktəbdir. Bu məktəbdə biz hərbi bilikləri öyrənirik. Daha cəsarətli, güclü döyüşçü kimi formalaşırıq. Bu vərdişləri bizə aşılayan komandirlərimizə dərin minnətdarlığımı bildirirəm."

Beləliklə, əsgərlərimizlə söhbətdən sonra əminliklə deyə bilərik ki, belə igid, vətənpərvər, yüksək döyüş hazırlığına malik oğulları olan ordunun qarşısında heç bir düşmən qüvvəsi dayana bilməz.

**Leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

Nümunəvi xidmət

# Validеynlərimin yanına qalib əsgər kimi dönəcəm

***Əsgər İxtiyar İdrisov Vətən müharibəsinin iştirakçısıdır. 44 günlük Vətən müharibəsində ilk gündən sonadək vuruşub. Əsgər dostları ilə çiyin-çiyinə vərərək Vətən uğrunda döyüşüb. Komandirinin verdiyi döyüş tapşırığını cəsarətlə, hünərlə yerinə yetirib. Qələbə əzmi ilə atıldığı döyüşlərdən qələbə ilə dönüb. Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə neçə-neçə erməni qəsbkarını məhv edib. Suqovuşanın, eləcə də bir çox strateji əhəmiyyətli yüksəkliklərin yağılardan təmizlənməsində cəsarətlə vuruşub.***



Söhbət zamanı öyrəndik ki, əsgər İxtiyar İdrisov ordu sıralarına 2019-cu ilin oktyabrında çağırılıb. Xidmətinin bir ilinin tamam olmasına az qalmış erməni qəsbkarlarının təxribatı nəticəsində Vətən müharibəsi başlayıb.

- Xidmətimin arxada qaldığı müddət ərzində təlimlərdə fəal iştirak edərək hərbi sirlərə dərindən yiyələnmişdim, döyüş vərdişlərini mənimsəmişdim, - deyə əsgər İxtiyar İdrisov bizimlə söhbətə başladı. - Torpaqlarımızın uzun illərdən bəri erməni qəsbkarlarının işğalında qalması bizi çox narahat edirdi. Valideynlərimin, doğmalarımın yanına qalib əsgər kimi dönməyi arzulayırdım. İstəyirdim ki, torpaqlarımızı düşməndən azad edək, doğma ocaqlarımıza qayıdaq. Vətən müharibəsi başlayanda arzuma çatacağıma inanırdım. Əks-həmlə əməliyyatlarına da bu istəklə atıldım. İlk döyüşlərdən düşmənin gücsüzlüyü aydın hiss olunurdu. Erməni qəsbkarları güclü və qüdrətli ordumuzun qarşısında dayana bilməzdi. Əsgərlərə döyüş əmri verən zabitlərimizin özləri də böyük hünərlə vuruşurdular. Biz əsgərlər də onlara baxıb daha cəsarətlə döyüşürdük. Döyüşdən-döyüşə də təcrübəmiz artırdı. Düşmən güclü əks-həmlələrimiz qarşısında dayana bilməyərək geri çəkilməyə başladı. Artıq qəsbkarların müqaviməti qırılmışdı. Gərgin döyüşlərimizdən biri də Suqovuşan və onun ətrafındakı yüksəkliklər uğrunda oldu. Yağılar bu yaşayış məntəqəsindən çıxmaq istəmir, ciddi müqavimət göstərirdilər. Amma ordumuzun hissələri güclü əks-hücumla işğalçıları geri oturdub Suqovuşanı azad etdi. Həmin gün sevincimiz yerə-göyə sığmırdı. Ermənistan ordusunun bölmələrini 30 ilə yaxın möhkəmləndikləri mövqelərdən vurub çıxarmışdıq. Artıq işğalın, işğalçıların sonu gəlmişdi. Ayağımız işğaldan azad edilmiş torpaqlara dəydikcə özümüzü daha güclü və qüdrətli hiss edirdik. Qumbaraatanımla düşmən mövqelərinə dəqiq atəş zərbələri endirirdim. Əks-həmlə əməliyyatları zamanı komandirlərimizin verdikləri döyüş tapşırıqlarını bacarıqla, peşəkarcasına yerinə yetirirdik. İkinci Qarabağ müharibəsində düşmən darmadağın olundu. Azərbaycan Ordusu, Azərbaycan əsgəri Vətən müharibəsində qalib gəldi, illərdən bəri erməni işğalında qalmış torpaqlarımızı azad etdi. Çox sevinirəm ki, mən də bu tarixi və şərəfli döyüşlərin iştirakçısı oldum. Artıq arzuma çatmışam, valideynlərimin, doğmalarımın yanına qalib kimi qayıdacağam. Əminəm ki, hərbi xidmətdən qalib əsgər kimi dönməyimdən valideynlərim də sevinəcək, qürur duyacaqlar.

Söhbət zamanı onu da öyrəndik ki, əsgər İxtiyar İdrisovun kiçik qardaşı Seymur da bu yaxınlarda ordu sıralarına çağırılıb. Hazırda "N" hərbi hissəsində xidmət edir. Vətən qarşısındakı övladlıq borcunu şərəf və ləyaqətlə yerinə yetirir. Valideynlərinin yanına qalib əsgər kimi qayıtmaq istəyən İxtiyar İdrisov dedi ki, ordu sıralarından tərxis olunanda, evə getməzdən əvvəl qardaşımla görüşəcəm. İştirakçısı olduğum döyüşlərdən Seymura da danışacam. İstəyirəm ki, Vətən uğrunda necə cəsarətlə döyüşdüyümüzü qardaşım da bilsin.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Tariximizin ən şanlı, ən parlaq səhifəsi

(Əvvəli 1-ci səhifədə)

Çox mürəkkəb şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, hökumət elmin, təhsilin, xalq maarifinin, səhiyyənin inkişafına xüsusi diqqət göstərirdi. Orta tədris məktəblərinin yarısı milliləşdirildi, məktəblərdə milli tarix tədris olunmağa başlandı. Ölkədə müxtəlif dərəcəli məktəblər, gimnaziyalar, qız məktəbləri, uşaq bağçaları, qısamüddətli müəllim kursları, kitabxanalar açıldı. Xəstəxanalar tikilirdi, kənd yerlərində feldşer məntəqələri şəbəkəsi yaradılırdı, ağır xəstəliklərə qarşı mübarizə aparılırdı.

Hökumət tərəfindən 1918-ci il iyunun 24-də əvvəlcə üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri olan qırmızı bayraq dövlət bayrağı kimi qəbul edildi. Daha sonra 1918-ci il noyabrın 9-da həmin bayraq üçrəngli - mavi, qırmızı və yaşıl rənglərdən ibarət olan bayraqla əvəzləndi.

1918-ci il dekabrın 7-də Parlamentin təntənəli açılışı oldu. Bu, bütün müsəlman Şərqində o dövrün demokratik prinsipləri əsasında formalaşdırılan ilk parlament idi. Əlimərdan bəy Topçubaşov parlamentin sədri, Həsən bəy Ağayev onun birinci müavini seçildi.

Cümhuriyyət Parlamentinin 1919-cu il sentyabrın 1-də Bakı Dövlət Universitetinin təsis olunması haqqında qəbul etdiyi qanun xüsusi əhəmiyyətə malikdir. Milli universitetin açılması Cümhuriyyət xadimlərinin xalqımız qarşısında çox mühüm tarixi xidməti idi. Sonralar imperiya Azərbaycan Xalq Cümhuriyyətini ilhaq etsə də, onun ideyalarının yaşamasında və xalqımızın yenidən müstəqilliyə qovuşmasında Bakı Dövlət Universiteti misilsiz rol oynadı.



Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq fəaliyyəti dövründə həyata keçirdiyi müstəqil dövlət quruculuğu təcrübəsi, qəbul etdiyi yüksək səviyyəli qanunvericilik aktları və qərarları ilə Azərbaycan dövlətçiliyi, xüsusən də parlament tarixində dərin və zəngin iz qoydu.

XX əsrin sonlarında dövlət müstəqilliyini yenidən bərpa edən Azərbaycan suverenliyini qoruyub saxlaya bildi. Daxili və xarici təsirlərə görə dövlət müstəqilliyini itirmə təhlükəsi ilə üzləşəndə böyük tarixi şəxsiyyət Heydər Əliyev xalqın ciddi tələbi ilə hakimiyyətə dəvət edildi. Ümummilli Lider Azərbaycanın dövlət müstəqilliyinin qorunmasını təmin etdi, gərəkli, qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Müasir müstəqil Azərbaycan Ümummilli Liderin rəhbərliyi ilə sürətli inkişaf yoluna qədəm qoydu.

Ulu Öndər dəfələrlə bildirmişdi ki, biz bu gün demokratik Azərbaycan dövlətini qururuqsa, ayağa qaldırırıqsa, Xalq Cümhuriyyətinə borcluyuq.

Ümummilli Liderin bu siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Bu gün Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan müstəqil Azərbaycan Respublikası inkişaf yolunda əmin addımlarla irəliləyir. Hazırda Azərbaycan dünya miqyasında dayanıqlı inkişafa və möhkəm ictimai-siyasi sabitliyə malik olan ölkə kimi tanınır. Təbii ki, bu inkişafın və sabitliyin əsasında uğurla reallaşdırılan praqmatik daxili və xarici siyasət kursu dayanır. Milli inkişaf modelinin uğurla tətbiq edilməsi və hədəflənən nəticələrin əldə olunması, sosial-siyasi islahatların davamlı olaraq həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, ölkəmizin beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında sürətlə irəliləməsi və digər nailiyyətlər müasir müstəqil Azərbaycanın gerçəkliklərini təşkil edir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və iki il ərzində fəaliyyəti tarixi hadisə idi. Azərbaycan o ölkələrdəndir ki, hələ yüz il bundan əvvəl ən ülvi demokratik dəyərləri nəinki bəyan edib, öz praktiki fəaliyyətində onları təmin edib. Bugünkü Azərbaycan, müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin bütün demokratik ənənələrinə sadiqik və bu ənənələri yaşadırıq".

Azadlıq, müstəqillik, ərazi bütövlüyü həm bir vətəndaş üçün, həm də xalqlar, millətlər üçün müqəddəs, şirin nemətdir. Xalqımız azadlığımızın, müstəqilliyimizin yolunu illərlə gözləyib, bu yolda minlərlə şəhid verib. Azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq bir o qədər mürəkkəb və ağır məsələdir.

2020-ci ilin 27 sentyabrında düşmən təxribatlarına cavab olaraq əks-hücum əməliyyatı ilə başlayıb böyük Zəfərlə tamamlanan Vətən müharibəsində xalqımızın nümayiş etdirdiyi vətənpərvərlik nümunəsi ən yüksək əxlaqi-etik keyfiyyət kimi özünü təsdiq etdi. Xalqımızın tarixin bu sınağından alnıaçıq, üzüağ, zəfərlə çıxmasını şərtləndirən başlıca amillərdən biri də azərbaycançılıq, Vətənə sonsuz sevgi hissinin sarsılmazlığı idi. Vətənə, torpağa bu bağlılığın təcəssümü idi ki, İkinci Qarabağ müharibəsində rəşadətli Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında öz əzmi və şücaəti ilə işğal olunmuş torpaqlarımızı düşməndən təmizləyərək Azərbaycanın ərazi bütövlüyünü təmin etməyi bacardı.

Artıq işğaldan azad olunmuş ərazilərimizdə günəş yenidən doğur, əzəli və əbədi yurd yerlərimiz yenidən canlanır, üçrəngli bayrağımızın kölgəsindəki işğaldan azad edilmiş bütün şəhərlərimiz, qəsəbələrimiz, kəndlərimiz yenidən qurulur.

Bu günlərdə ölkəmizin mədəniyyət paytaxtı Şuşanın Cıdır düzündə dosta fəxarət, düşmənə göz dağı olan "Xarıbülbül" musiqi festivalı da qüdrətli və möhkəm dövlətimizin öz azadlığına, müstəqilliyinə, ərazi bütövlüyünə verdiyi dəyərlə dünyanın diqqət mərkəzində oldu. Bir daha təsdiqləndi ki, Azərbaycan dövlətçiliyi əbədidir!..

**Baş leytenant**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

---

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin həyatına böyük tarixi hadisə kimi daxil oldu. Müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi. 1918-ci il mayın 28-də qəbul edilən İstiqlal Bəyannaməsindən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik hisslərini daha da gücləndirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi özlüyündə möcüzə idi. İlk respublikanın baniləri çətinliklərlə üzləşdilər. Onlar respublikanı bütün çətinliklərə baxmayaraq elan etdilər, demokratik parlamenti və milli ordunu da çətinliklərə rəğmən qurdular, bütün həyatlarını millətin maarifləndirilməsi və inkişafına sərf etdilər. Qısa müddətdə mövcud olan respublikanın nailiyyətləri böyük əhəmiyyət daşıyırdı. Cəmi 23 ay mövcud olmasına baxmayaraq, respublika Azərbaycanın və Qafqazın müasir tarixində mühüm iz buraxdı.

Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti üzərinə götürdüyü çətin tarixi vəzifəni şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, ordu quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Dünya Birliyi tərəfindən tanınan Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində ölkəmizin beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprelində bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacardı. Xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Beləliklə, Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti quruldu və sürətli inkişaf yoluna qədəm qoydu.

Ulu Öndərimiz dəfələrlə bildirmişdi ki, biz bu gün demokratik Azərbaycan dövlətini qururuqsa, ayağa qaldırırıqsa, Xalq Cümhuriyyətinə borcluyuq. Azərbaycan Xalq Cümhuriyyətinin tariximizdəki yeri və roluna xüsusi qiymət verən Heydər Əliyev deyirdi: "Biz ilk Demokratik Cümhuriyyətin yaranması gününü əziz tutaraq, onu Azərbaycanın dövlət müstəqilliyi günü - Respublika Günü elan etmişik və bu, bizim milli bayramımızdır".

Ümummilli Liderin bu siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Dövlətimizin başçısının sərəncamları ilə 2018-ci il ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olundu və AXC-nin 100 illik yubileyi təntənəli şəkildə qeyd edildi. Xalqımız Cümhuriyyətin yarandığı 28 May - Respublika Gününü hər il milli bayram kimi keçirir.

44 günlük Vətən müharibəsinin Ali Baş Komandanın, Azərbaycan Ordusunun, xalqımızın zəfəri ilə başa çatması sübut etdi ki, dövlətimiz sələflərinin yolunu uğurla davam etdirməkdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi: "Müstəqilliyi qorumaq onu qazanmaqdan da çətindir". Bu gün əminliklə deyə bilərik ki, Azərbaycan dövləti müstəqilliyini, ərazi bütövlüyünü, dövlətçiliyini qoruyur və inkişaf etdirir. Dövlətçilik yolunda xalqımızı işıqlı sabahlar gözləyir.

**Hüsniyyə İDRİSOVA**
**BSU-nun IV kurs tələbəsi**

---

## Fransa portalı Ermənistanın azərbaycanlılara qarşı törətdiyi müharibə cinayətlərindən yazıb

Fransanın "Mediapart" portalında "Dağlıq Qarabağda ermənilərin müharibə cinayətləri ilə bağlı istintaq" sərlövhəli məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistanın 30 il işğal altında saxladığı Azərbaycan torpaqlarında törətdiyi müharibə cinayətlərinə cavab verilməsinin vaxtının çatmasından, Ermənistanın istifadəsi qadağan olunmuş raketlərdən azərbaycanlı mülki əhalini hədəfə almasından söz açılıb.

Bildirilib ki, Azərbaycan ötən ilin noyabrında azad etdiyi torpaqlarında Ermənistan tərəfindən törədilmiş müharibə cinayətlərinə, eləcə də mədəni və maddi əmlaka vurulmuş ziyana görə məhkəməyə müraciət edəcək. BMT-nin 1993-cü ildə qəbul etdiyi 4 qətnamə vasitəsilə beynəlxalq hüquq Ermənistanı qınasa da, Yerevan buna məhəl qoymayıb. Bakı dəfələrlə erməni tərəfinin törətdiyi müharibə cinayətləri faktları ilə bağlı İnsan Hüquqları üzrə Beynəlxalq Federasiyasına müraciət edib.

Məqalənin müəllifi Anri Furkadi ötən ilin payızındakı 44 günlük müharibə zamanı Ermənistanın qadağan edilmiş raketlərdən istifadə etdiyini xüsusi vurğulayıb. Həmçinin qeyd edilib ki, Ermənistan minaladığı ərazilərin xəritələrini verməkdən imtina edir ki, bu da Azərbaycan əsgərlərinin həyatı üçün son dərəcə təhlükəlidir.

Müəllif diqqətə çatdırıb ki, İkinci Qarabağ müharibəsi zamanı Ermənistan beynəlxalq hüququn bütün norma və prinsiplərini kobud şəkildə pozaraq, Azərbaycanın mülki əhalisinə qarşı istifadəsi qadağan olunmuş müxtəlif növ raketlərdən istifadə edib. Ermənistan 2020-ci il oktyabrın 11-i və 17-də "SCUD" raketləri ilə Gəncənin yaşayış məhəlləsinə zərbələr endirməsi nəticəsində 100 mülki sakin həlak olub, 400 nəfər isə yaralanıb.

Mingəçevir Su Elektrik Stansiyası, eləcə də Şuşa şəhərinin də raketlərlə hədəfə alındığı qeyd edilib. Azərbaycan tərəfinin araşdırmaları nəticəsində Ermənistanın qətlə yetirdiyi azərbaycanlıların kütləvi məzarlarının tapıldığı və bunun bütün beynəlxalq konvensiyalara zidd olduğu göstərilib.

Azərbaycanın Ermənistan tərəfindən törədilmiş müharibə cinayətlərinin cəzasız qalmaması üçün hərbi cinayətlərə görə təzminat almaq və Ermənistanı məhkəməyə vermək niyyətində olduğu qeyd edilib.

Sonda bildirilib ki, təxminən 28 il işğal altında qalmış Qarabağ azad edildikdən sonra artıq beynəlxalq hüququn regionda tam bərpa olunmasının vaxtı çatıb.

# Azərbaycan Ordusunda "Ən yaxşı ictimai-siyasi hazırlıq dərsinin qrup rəhbəri" müsabiqəsi keçirilir





Qoşun növləri, birlik, birləşmə, əlahiddə hərbi hissələrdə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində ideoloji işin aparılması, hərbi qulluqçularda yüksək döyüş və mənəvi-psixoloji keyfiyyətlərin formalaşdırılması, dövlətçilik, azərbaycançılıq və vətənpərvərlik tərbiyəsinin yüksək səviyyədə təşkil edilməsi, döyüş tapşırıqlarının müvəffəqiyyətlə yerinə yetirilməsində hüquqi qaydanın və hərbi intizamın möhkəmləndirilməsində şəxsi məsuliyyət hissinin yüksəldilməsi məqsədilə keçirilmiş ictimai-siyasi hazırlıq dərslərinin vəziyyətinin öyrənilməsi, həmçinin qrup rəhbərlərinin pedaqoji vərdişlərinin təkmilləşdirilməsi və qabaqcıl təcrübənin təbliğ edilməsi üçün Azərbaycan Ordusunun 2021-ci ilin hazırlıq planına əsasən "Ən yaxşı ictimai-siyasi hazırlıq dərsinin qrup rəhbəri" müsabiqəsi keçirilir.

Hərbi hissələrdə birinci mərhələ üzrə qaliblər müəyyən edilərək mükafatlandırılıb. Yekun mərhələdə isə xüsusi komissiya tərəfindən Azərbaycan Ordusu üzrə müsabiqənin qalibləri müəyyən ediləcək.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# "Ehtiyat zabit hazırlığı kursu"nun buraxılış mərasimi keçirildi





*Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "Ehtiyat zabit hazırlığı" kursunun buraxılış mərasimi keçirildi.*

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin, Vətənimizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Hərbi orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Polkovnik Sarı Xəlilov kursu bitirən məzunları leytenant hərbi rütbəsinə layiq görülmələri münasibətilə təbrik etdi, onlara xidmətlərində uğurlar arzuladı.

Buraxılış mərasimində çıxış edən polkovnik-leytenant Niyazi Şükürov ordu quruculuğu prosesinin dövlət quruculuğunun əsas tərkib hissələrindən biri olduğunu vurğuladı. "Bu gün ümummilli lider Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident, Ali Baş Komandan İlham Əliyevin orduya göstərdiyi diqqət və qayğı nəticəsində ordumuz daha da inkişaf edir. Buna sübut olaraq Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında başlayan və rəşadəti ordumuzun 44 gün ərzində apardığı haqq savaşında qazandığı Böyük Qələbə xalqımızın sarsılmaz birliyinin parlaq təcəssümünə çevrilərək 30 illik Vətən həsrətinə son qoydu. Ata-baba torpaqlarımız düşmən işğalından azad edildi. Ermənistan silahlı birləşmələri darmadağın edilərək tarixi yurdyerlərimizdən qovuldu."

"Silahlı Qüvvələr üçün müasir tələblərə cavab verən hərbi qulluqçuların hazırlanması ölkəmizin müdafiə qüdrətinin artırılmasına xidmət edən mühüm amillərdəndir. İnanırıq ki, kurs müddətində yiyələndiyiniz hərbi bilikləri xidmət edəcəyiniz hərbi hissələrdə uğurla tətbiq edəcək, Azərbaycan zabitinin şərəfli adını daha da yüksək tutacaqsınız", - deyə zabit Sarı Xəlilov bildirdi.

Məzunlar adından çıxış edən leytenant Vəli Heydərli kursu müvəffəqiyyətlə bitirdiklərinə, qalib Azərbaycan Ordusunun sıralarına daxil olduqlarına görə qürur hissi keçirdiyini bildirdi. "Tam məsuliyyətlə deyə bilərəm ki, kurs zamanı aldığımız yeni nəzəri bilikləri və praktiki vərdişləri daha da artıracaq, döyüş qabiliyyətini gündən-günə yüksəldəcək, Vətənimizə sədaqətlə xidmət edəcəyik. Qəlbi Vətən sevgisi ilə dolu olan hər birimiz bu şərəfli peşənin öhdəsindən layiqincə gələcəyimizə, ordumuzun gələcək zəfər yürüşünə adımızı igidlik və şücaətlə həkk edəcəyimizə söz veririk."

"Fürsətdən istifadə edərək kurs yoldaşlarım adından komandanlığa, zabit-müəllim heyətinə bizə göstərdikləri diqqət və qayğıya, zabit kimi hazırlığımız üçün sərf etdikləri zəhmətə görə minnətdarlığımızı bildiririk", - gənc zabit dedi.

Daha sonra kursu müvəffəqiyyətlə bitirən məzunlara leytenant hərbi rütbələri və sertifikatlar təqdim olundu.

Sonda gənc zabitlərin tribuna önündən təntənəli keçidi oldu, xatirə şəkli çəkdirildi.

**Leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**




## Mühəndis Qoşunları bütün gücü ilə mina və partlamamış döyüş sursatlarının təmizlənməsinə cəlb edilib

Azərbaycan Ordusunun Mühəndis Qoşunları hazırda bütün qüvvə və vasitələri ilə işğaldan azad olunmuş ərazilərimizdə mina və partlamamış döyüş sursatlarının təmizlənməsi işinə cəlb edilib.

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin Mühəndis Qoşunları İdarəsinin rəisi general-mayor Anar Kərimov mayın 25-də jurnalistlərə açıqlamasında deyib.

A.Kərimov bildirib ki, işğaldan azad edilmiş ərazilərdə Mühəndis Qoşunları indiyədək 6200 hektardan artıq ərazini minalardan təmizləyərək aidiyyəti üzrə təhvil verib. Proses mütəmadi qaydada davam etdirilir. Burada təkcə şəxsi heyət deyil, xidməti itlər və mexaniki minatəmizləmə vasitələrindən də geniş istifadə olunur. Eyni zamanda, minatəmizləmə işlərinə cəlb edilən digər qurumlarla da sıx əməkdaşlıq həyata keçirilir.

# Azad olunmuş ərazilərimizdə yerləşən bölmələrdə bir sıra tədbirlər keçirilib





*Azərbaycan Ordusunun hərbi qulluqçularının mənəvi-psixoloji vəziyyətinə müsbət təsir göstərmək, şəxsi heyətin ruh yüksəkliyini, döyüş əzmini artırmaq və asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə azad olunmuş ərazilərimizdə dislokasiya olunan bölmələrin şəxsi heyəti üçün bir sıra tədbirlər həyata keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin səyyar təşviqat qruplarının təşkil etdiyi tədbirlərdə müxtəlif yarışlar, oyunlar və viktorinalar keçirilib. Yarışlarda qalib olan əsgərlərə mükafatlar təqdim olunub.

"Əsgərə məktub" layihəsi çərçivəsində hərbi qulluqçulara çatdırılan məktublar onların böyük marağına səbəb olub. Hərbi qulluqçular məktub müəlliflərinə öz minnətdarlıqlarını bildiriblər.

Tədbirlərdə şəxsi heyətə vətənpərvərlik mövzusunda musiqi nömrələri təqdim olunub.

# Tarix yazanlar tarixə yazıldılar





***2020-ci il sentyabrın 27-də düşmənin genişmiqyaslı təxbribatlarına cavab olaraq ordumuz əks-hücum əməliyyatlarına başladı. Ali Baş Komandanımızın rəhbərliyi altında davam edən 44 günlük Vətən müharibəsində şanlı Azərbaycan Ordusu parlaq qələbə qazandı. Rəşadətli ordumuz qısa zaman ərzində ərazi bütövlüyümüzü təmin edərək düşməni tarixi torpaqlarımızdan qovdu. Döyüş meydanında məğlub olan düşmən geri çəkilməyə məcbur oldu. İgid Azərbaycan əsgəri bu döyüşlərdə dəmir iradə, şücaət və qəhrəmanlıq göstərərək adını hərb tariximizin Zəfər salnaməsinə qızıl hərflərlə yazdı.***

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin şəxsi heyəti də Vətənimizin azadlığı uğrunda gedən döyüş əməliyyatlarında fəal iştirak etdilər. Onlardan 10 nəfəri ən yüksək pilləyə - şəhidlik zirvəsinə yüksəldi.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində Vətən müharibəsində şəhid olan polkovnik-leytenant Qərib Baxşəliyev, kiçik leytenantlar Vüsal Muradov və Seymur Abbasovun doğum günü ilə əlaqədar anım mərasimi keçirildi.

Tədbirdə xüsusi təyinatlı təhsil müəssisəsinin müəllim, zabit və kursant heyəti, şəhidlərin ailə üzvləri və döyüş yoldaşları, Xətai rayon İcra Hakimiyyətinin nümayəndəsi və digər qonaqlar iştirak etdilər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin, Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Dövlət Himni səsləndirildi.

Tədbiri giriş nitqi ilə açan polkovnik Emin Səfərov Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında ordumuzun qazandığı tarixi qələbədən, döyüşlərdə göstərilən qəhrəmanlıq və igidlik nümunələrindən danışdı. "Ötən il xalqımız vahid bir amal ətrafında sıx birləşərək şanlı tarix yazdı. Vətən torpaqlarının hər qarışı uğrunda Azərbaycan əsgəri şücaət göstərərək torpaqlarımızı işğaldan azad etdi. Milli qürur mənbəyimiz olan Şuşa 28 il sonra öz azadlığına qovuşdu. Neçə-neçə igid oğullarımız öz canlarından keçərək tarixi ədaləti bərpa etdilər. Onların qorxmazlığı və qəhrəmanlığı, keçdikləri şərəfli döyüş yolları gələcək nəsillərə örnəkdir. Xalqımız bizə bu sevinci yaşadan şəhidlərimizin xatirəsini qəlbində yaşadacaq, daim ehtiramla yad edəcək".

Xətai rayon İcra Hakimiyyətinin nümayəndəsi Anar Məmmədov şəhidlərin ailə üzvlərinə belə qəhrəman və doğma Vətənini canından üstün bilən övladlar böyütdükləri üçün təşəkkürünü bildirdi. "Şəhidlər bizim həm nisgilimiz, ürəkağrımız, həm də qürur mənbəyimizdir. Şəhidlik hər kəsə nəsib olmur. Onlar bizim gələcəyimiz üçün canlarını fəda etdilər. Bizlər də Müzəffər Ali Baş Komandanımızın ətrafında sıx birləşərək şəhid qardaşlarımızın bizə əmanət etdiyi Vətənimizə layiqincə xidmət edəcək, diqqət və qayğımızı onların ailə üzvlərindən heç vaxt əsirgəməyəcəyik. Bu müqəddəs yolda şəhid olanlara Allahdan rəhmət diləyirəm. Bu müqəddəs savaşda öz sağlamlıqlarını itirmiş qazilərimizə şəfa arzulayıram".

Şəhidlər Vüsal Muradovun və Seymur Abbasovun valideynləri övladları ilə fəxr etdiklərini, dövlətimiz tərəfindən hərtərəfli diqqət və qayğı ilə əhatə olunduqlarını bildirdilər. Övladlarının doğum günündə belə bir tədbirin təşkilində əməyi və zəhməti olan hər kəsə təşəkkür etdilər.

Şəhidlərimizin silahdaşları onların keçdiyi qısa və lakin şərəfli döyüş yolundan söhbət açdılar, qəhrəmanlarımızla bağlı xatirələrini bölüşdülər.

Şəhid kiçik leytenantlar Vüsal Muradov və Seymur Abbasovun ailə üzvləri övladlarının təhsil aldığı hərbi məktəblə tanış oldu, yataqxanada şəhidlərin xatirəsinə həsr olunan guşələrə baxdılar.

Tədbir Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin və xanəndə Kənan Bayramovun ifasında vətənpərvərlik mövzusunda olan mahnılarla davam etdi.

Sonda tədbir iştirakçıları şəhidlər üçün yaradılmış fotostendlərlə tanış oldular, xatirə şəkli çəkdirdilər.

**Leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**

*Medallı igidlərimiz*

## "Həsrətlə baxdığımız torpaqlarımızda xidmət edirik"



***Ötən il sentyabrın 27-də düşmənin həyata keçirdiyi genişmiqyaslı təxribatın qarşısını almaq məqsədilə Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Ali Baş Komandanımızın rəhbərliyi altında başlayan Vətən müharibəsinin ilk günündən etibarən düşmənə ardıcıl, həmçinin dağıdıcı zərbələr endirildi. Peşəkar və yüksək döyüş ruhuna malik olan hərbçilərimiz qorxu bilmədən irəliləyib, erməniləri doğma torpaqlarımızdan qovub çıxartdılar. "Dəmir yumruq" əməliyyatı adı altında gedən döyüşlər nəticəsində düşmən ordusu məhv edildi, Qarabağ həsrətinə son qoyuldu. Əlbəttə, bu tarixi qələbəni xalqımıza yaşadan cəsur döyüşçülərimiz oldu. Məhz onların güc və iradəsi nəticəsində ermənilər geri çəkilmək məcburiyyətində qaldılar.***

İllər sonra düşmən işğalından azad edilən Cəbrayıl rayonunda Vətən müharibəsində fərqlənən, düşmənə göz dağı verən kapitan Valeh Bədrəddinli ilə tanış olduq. Qəbələ rayonunda dünyaya göz açan Valeh hələ yeniyetmə vaxtlarından hərbçi olmaq qərarına gəlib. O, 2005-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olub. V.Bədrəddinli əvvəl Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, sonra isə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzini bitirib. "Leytenant" rütbəsində hərbi xidmətə yollanıb. Qısa bir müddət ərzində gənc zabit həm şəxsi heyətin, həm də komandirlərinin hörmət, sevgi və rəğbətini qazanıb.

Xidmətə başladığı ilk gündən nizam-intizamlı və nümunəvi olmağa çalışır. Hərbi hissənin seçilən zabitlərindən olur. O, hər zaman bütün gücü və iradəsi ilə şəxsi heyəti peşəkar bir döyüşçü kimi yetişdirməyə çalışır. Əsgərlərin döyüş qabiliyyətini və ruhunu, fiziki, atəş və mənəvi-psixoloji hazırlıqlarını artırması üçün əlindən gələni əsirgəmir. Şəxsi heyətə həm qardaş, həm də komandir olur. Gənc zabitin peşəkarlığı sayəsində əsgərlərimiz hərbi sirlərə yiyələnirlər. "Bizim əsas vəzifəmiz əsgərlərimizi peşəkar döyüşçü kimi hazırlamaqdır. Onların hərtərəfli hazırlıqlı olmalarını daim diqqət mərkəzində saxlayırıq. Məktəb illərində öyrəndiklərimizi onlara öyrədirik. Məni xidmət etməyə ruhlandıran əsas amillərdən biri tabeliyimdə olan şəxsi heyətə göstərdiyim diqqət və qayğıdır. Onlar bizə əmanətdirlər. Ata-babalarımızdan öyrənmişik ki, əmanəti göz bəbəyi kimi qorumaq lazımdır. Onların heç birinə evdən, valideynlərindən uzaq olmalarını hiss etdirməməliyik. Hər biri bizim üçün doğmadır".

- İllər sonra mənfur düşmən işğalından azad olunan torpaqlarımızda xidmət etdiyim üçün sevinirəm, - deyə zabit sözünə davam etdi. - Keçirdiyim hissi adi sözlərlə ifadə etmək mümkün deyil. Hər zaman bu arzu ilə yaşamışıq və bu gün rəşadətli ordumuzun sayəsində buna nail olduq. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında gündən-günə güclənən ordumuz istənilən döyüş tapşırığının öhdəsindən asanlıqla gələ biləcək gücə malikdir. 44 günlük Vətən müharibəsi bunun bariz nümunəsidir. Söz verdiyimiz kimi, xalqımıza Böyük Qələbə gününün sevincini yaşatdıq.

V.Bədrəddinli onu da qeyd etdi ki, Vətəni qorumaq, onun bir qarış torpağını canından əziz bilmək hər birimizin vətəndaşlıq borcudur. Buna görə də o, hər zaman dədə-baba torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edənlərin sırasında olmaq istəyib. Belə ki, qızğın döyüşlər nəticəsində düşmənə göz açmağa imkan verməyən zabit bir çox uğurlu əməliyyatların iştirakçısı olub. Onun gücü, iradəsi və təcrübəsi nəticəsində erməni əsgəri çoxlu sayda itki verib. Dəqiq hesablamalar apararaq düşmənin cəmləşmə məntəqələrini, texnikalarını, mövqelərini və hədəflərini dəqiq artilleriya atəşi nəticəsində darmadağın edib. Artilleriya bölməsi olaraq ilk dəfə Cəbrayıl rayonuna daxil olan məhz kapitan V.Bədrəddinlinin komandiri olduğu bölmə olub. "Ali Baş Komandanımızın döyüş əmri verdiyi andan etibarən bizim bölmə düşmənə sarsıdıcı artilleriya atəşləri endirməyə başladı. Torpaqlarımıza zorla soxulan düşməni intensiv artilleriya atəşinə tutduq. Bir çox mövqelərini dağıtdıq. Erməni qəsbkarları təşviş içində idilər. İrəliləyən bölmələrimiz isə öz növbəsində onlara bir an da olsun göz açmağa imkan vermirdilər. Aprel döyüşlərində olduğu kimi, Vətən müharibəsində də onların necə qorxaq olduqlarının şahidi olduq. Azərbaycan əsgəri ilə üz-üzə gəlmək gücünə sahib olmadıqları üçün silahlarını atıb döyüş meydanından qaçırdılar. Bu gün artıq illərdir səngərlərdən həsrətlə baxdığımız torpaqlarımızda xidmət edirik. Regionun ən güclü ordusu olan qalib Azərbaycan Ordusunda xidmət etdiyim üçün qürur duyuram".

Qeyd edək ki, kapitan Valeh Bədrəddinli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

# Şuşa: Mədəniyyətimizin və Qələbəmizin simvolu




***İyirmi səkkiz il qəlbimizdə bir ağrı, bir nisgil yaşadıq. Bu illər ərzində bir an da olsun Qarabağı unutmadıq, onun nə vaxtsa qayıdacağına ümidsiz olmadıq. Həmişə işğal altında olan torpaqlarımızın azadlığını düşündük. Arxada qoyduğumuz illərdə bütün bayramlarda, bütün mərasimlərdə bir arzu, bir diləyimiz oldu; "Gələn il biz bu bayramı işğal altında olan torpaqlarımızda, Şuşada qeyd edək!" Bu kəlmələri deməkdən nə yorulduq, nə də usandıq, əksinə, yurd həsrəti bizi daha mübariz etdi.***

Keçmişdə yaşananlardan və onun səbəblərindən söhbət açıb ovqatımızı təlx etmək fikrində deyiləm. Bizə bu qələbəni, bu sevinci bəxş edən Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ötən ilin 27 sentyabrında başlayan və 44 gündə Azərbaycan Ordusunun apardığı əks-hücum əməliyyatı nəticəsində bəxş edilən şanlı Qələbədən və bu andan yaşamağa başlayan sevinc dolu günlərimizdən bəhs edəcəm. Milli mədəniyyətimizə dahi şəxsiyyətlər yetirən, Qarabağın tacı olan Şuşa şəhəri ötən il noyabrın 8-də erməni vandallarından azad edildi. Bu, erməni faşizmi üzərində qazandığımız tarixi möhtəşəm Qələbə oldu. Azərbaycanın hərb tarixində son iki yüz ildə qazandığımız ən böyük Qələbədir.

On illərin əsarətindən sonra Şuşa yenidən doğma sakinlərinə qovuşdu. Şuşa azad olunanda onun görkəmində bir inciklik, küsgünlük də vardı. Əsrlərdən gələn milli mədəni irsimizi özündə əks etdirən tarixi abidələr, muzeylər və şəhərə xüsusi gözəllik verən Gövhər Ağa məscidi ermənilər tərəfindən viran edilmişdi. Əsrlərin o tayından gələn Pənahəli Xanın, Molla Pənah Vaqifin, Xurşidbanu Natəvanın ruhlarının azan səsi eşidib necə sevindiyinin fərqində olduq. Cıdır düzü, Xarıbülbül də bizdən incik düşməmiş deyildi. Nə yaxşı ki, əsrarəngiz, füsunkar təbiətin qış yuxusuna daldığı bir dönəmdə biz qayıtdıq. İndi təbiət oyanır, Şuşada bizi yenidən bərpa edilən Molla Pənah Vaqifin məqbərəsi, Cıdır düzündə Xarıbülbül qarşılayır. Sanki təbiət kimi Şuşaya da yeni nəfəs gəlib, canlanır.

Bu il dövlətimizin başçısının müvafiq sərəncamı ilə Şuşa şəhəri Azərbaycan mədəniyyətinin paytaxtı elan olundu. Mayın 8-də Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilən "Xarıbülbül" festivalı möhtəşəmliyi və əzəməti ilə fərqlənirdi. Cıdır düzündə keçirilən "Xarıbülbül" festivalında Müzəffər Ali Baş Komandan İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva və ailə üzvləri iştirak edirdilər. Olduqca yüksək tərtibatda təqdim edilən "Xarıbülbül" festivalı bütün dünyaya bir daha Azərbaycanın tolerant bir ölkə olduğunu bəyan etdi. Doğma Azərbaycanı yadelli işğalçılardan qorumaq və Vətən torpaqlarımızı yağı tapdağından azad etmək üçün dinindən, irqindən asılı olmayaraq bütün xalqlar həmrəy oldular. Şuşa şəhərində keçirilən "Xarıbülbül" festivalında bu bir daha öz əksini tapdı. Azərbaycanda yaşayan çoxlu etnik xalqların mədəni irsini yaşadan özfəaliyyət kollektivlərinin nümunəvi çıxışlarında bunu gördük.

"Xarıbülbül" festivalında ölkəmizin görkəmli yazıçıları, şairləri, mədəniyyət xadimləri və müxtəlif sənət adamları iştirak edirdilər. Onlar son üçüncü on illiyin tamamında ilk dəfə idi ki, Şuşaya ayaq açırdılar. Diqqətimi daha çox cəlb edən sənət adamları arasında tanınmış memar Elbay Qasımzadə də vardı. Söz yox ki, Şuşa şəhərinin yenidən bərpa edilməsinə artıq başlanılıb. Milli üslubda ucaldılacaq abidələrin, evlərin, təhsil ocaqlarının, bir sözlə, yeni şəhərə əlavə olunacaq müasir memarlıq inciləri sırasında professor Elbay Qasımzadənin də layihələrinin yer alacağını görəcəyik.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Şəhid zabit Qərib Baxşəliyevin 4-cü övladı dünyaya gəlib

44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə yüksələn təcrübəli zabit polkovnik-leytenant Qərib Baxşəliyevin yeni doğulan qız övladının xəstəxanadan çıxarılması məqsədilə mərasim təşkil olunub. Baku Medical Plazada keçirilən mərasimdə şəhidin ailə üzvləri, Müdafiə Nazirliyinin, Nərimanov rayon İcra Hakimiyyətinin, Yaşat Fondunun, kütləvi informasiya vasitələrinin və ictimaiyyətin nümayəndələri iştirak ediblər. Vətən uğrunda şəhid olaraq cənnətə yüksələn zabitin yeni doğulmuş qız övladına Cənnət adı verilib. Cənnət şəhidimizdən yadigar qalan 4-cü övladıdır.



Tədbir iştirakçıları şəhidimizin övladının dünyaya gəlməsi münasibətilə onun ailə üzvlərinə göz aydınlığı verdilər və ümidvar olduqlarını bildirdilər ki, 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan zabitimizin övladları böyüdükdə atasının adına layiq olacaqlar. Çıxış edənlər bildirdilər ki, xalqımız Azərbaycan Ordusunun qəhrəman oğulları ilə hər zaman qürur duyur.

Qeyd edildi ki, Silahlı Qüvvələrin Ali Baş Komandanının da vurğuladığı kimi ərazi bütövlüyümüz uğrunda şəhid olan oğullarımızın xatirəsi daim yaddaşlarda yaşayacaq. Şəhid polkovnik-leytenant Qərib Baxşəliyevin yaxınları bildirdilər ki, Vətənə sonsuz sevgisi olan zabit hər zaman torpaqlarımızın işğaldan azad olunmasını arzulayırdı. 44 günlük Vətən müharibəsi zamanı yüksəldiyi şəhadət onun əsl vətənpərvər oğul olduğunu bir daha təsdiqlədi. Mərasimdə, həmçinin şəhid zabitin silahdaşları, döyüşlərdə onunla çiyin-çiyinə vuruşmuş hərbi qulluqçular da iştirak edirdilər. Onlar da öz növbəsində bildirdilər ki, şəhid zabit şəxsi həyatə döyüşlərin ağır günlərində belə xüsusi diqqət və qayğı göstərirdi, döyüşlər zamanı tabeliyindəki hərbi qulluqçuları Böyük Qələbəyə ruhlandırırdı.

Müdafiə nazirinin tapşırığına əsasən, Cənnətin dünyaya gəlməsi münasibətilə ailəyə maddi yardım və hədiyyələr təqdim edildi. Vurğulandı ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şəhid ailələrinin sosial rifahının yüksəldilməsinə yönəlik qarşıya qoyduğu tapşırıqlar uğurla icra edilir. Şəhidin ailə üzvləri mərasim iştirakçılarına göstərilən yüksək diqqətə görə təşəkkürünü bildirdilər.

Qeyd edək ki, Qərib Baxşəliyev 2020-ci il noyabrın 3-də cəbhənin Zəngilan istiqamətində şəhid olub. Döyüşlərdə qarşıya qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyə Sahil Mühafizə Komandanlığı yerli istehsal qayıqlarını arsenalına qatacaq



Türkiyədə çoxistiqamətli istehsalın inkişafı gəmiçilik sahəsinə də böyük uğurlar gətirməkdədir. Antalyada fəaliyyət göstərən azad istehsal sahəsində inşa olunan qayıqlar ölkə xaricində böyük alıcı qazandığı kimi ölkə daxilində də celbediciliyini artırıb.

Türkiyə Sahil Mühafizə Komandanlığı "Ares" tərsanəsində istehsal olunan bu qayıqların alıcısına çevrilib. Bildirilir ki, "Ares" tərsanəsində Sahil Mühafizə Komandanlığı üçün 122 qayığın istehsalına başlanılıb. Ərəb ölkələrinin siyasi elitası tərəfindən davamlı olaraq lüks yaxtaların sifarişini alan "Ares"in qayıqları sürətinə, mürəkkəb hava şəraitində təhlükəsiz hərəkətinə və digər texniki göstəricilərinə görə etibar qazanıb.

### İran yeni silahlarını təqdim edib



İran İslam İnqilabının Keşikçiləri Korpusunun komandanı, general Hüseyn Səlaminin iştirakı ilə yeni pilotsuz uçan aparat (PUA) təqdim edilib.

"Qəzzə" adı verilən yeni PUA 35 saat fasiləsiz uça bilir, kəşfiyyat, hücum və müdafiə sahələrində müxtəlif funksiyalara malikdir.

Bundan başqa, "Qüds" yeni radar sistemi, "Kruz" və "9 Dey" bombaları da təqdim edilərək ordunun istifadəsinə verilib. Bu silahsursatlar tam olaraq İranın yerli istehsalıdır.

General diqqətə çatdırıb ki, İran heç zaman müharibə arzusunda olmayıb. Lakin xarici təhdidlər olarsa, İran ordusu buna qətiyyətlə cavab verməyə hazırdır.

### Polşa ordusu Türkiyədən 24 ədəd pilotsuz zərbə uçuş aparatı alacaq



Polşa Türkiyədən tank əleyhinə raketlərlə silahlanmış 24 ədəd pilotsuz uçuş aparatı (PUA) almaq qərarına gəlib.

Bu barədə respublikanın Müdafiə naziri Mariuş Blaşak Polşa radiosunda çıxışı zamanı deyib. Onun sözlərinə görə, bu PUA-lar Avropanın şərqdəki döyüşlərdə uğurlu olan və Yaxın Şərqdə özünü yaxşı cəhətdən göstərən "Bayraktar" aparatlarıdır.

"İndiyə qədər Polşa Silahlı Qüvvələrində mövcud olmayan, lakin yoxlanılmış, effektiv və təcavüzkarı qorxuya salan silahlar orduya daxil olacaq", - deyə nazir bildirib. O, PUA-ların alınması barədə müqavilənin Polşa Prezidenti Anjey Dudanın mayın 24-də Türkiyəyə səfəri zamanı imzalanacağını deyib.

"Bayraktar" pilotsuz uçuş aparatlarının ilk dəstinin 2022-ci ildə Polşa ordusuna daxil olacağını deyən Mariuş Blaşak müqavilə çərçivəsində maddi-texniki və təlim paketinin də əldə ediləcəyini vurğulayıb.

### İran ordusu kiber təhdidlərə qarşı təlim keçirib

İran ordusu kiber təhdidlərlə mübarizə gücünü artırmaq məqsədilə "Fəth-1" kod adı altında birgə təlim-məşqləri keçirib.

Bu barədə İran ordusunun baş komandanının koordinasiya üzrə müavini kontr-admiral Həbibullah Səyyari məlumat verib. O bildirib ki, müasir dünyada kiber təhlükəsizliyin təmin olunması çox mühüm məsələlərdən biridir. Təlimlərin məqsədi ordunun kiber təhdidlərə qarşı müdafiəsini gücləndirməkdən ibarətdir.

Hər bir ordunun döyüş qabiliyyətinin yüksək səviyyədə olması onun kiber təhlükəsizliyinin təminindən çox asılıdır.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan Ordusunda hərbi beşnövçülük yarışları keçirilib

***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Azərbaycan Ordusunda idman yarışlarının keçirilməsi haqqında illik əmrinə əsasən, hərbi qulluqçular arasında hərbi beşnövçülük yarışları keçirilib.***



Yarışlarda ayrı-ayrı qoşun növlərində və birləşmələrdə xidmət edən idmançılar fərdi və komanda birinciliyi uğrunda mübarizə aparıblar.

12 komanda iki qrupda təmsil olunmaqla 69 hərbi qulluqçu maneələr zolağının dəf edilməsi, qumbaraatma, maneələrlə üzmə, atış və kross növləri üzrə güclərini sınayıb.

Yarışları Müdafiə Nazirliyinin məsul zabitləri idarə ediblər.

Maneələr zolağının dəf edilməsi üzrə 500 metr məsafə yarışmasında Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbin kursantı kiçik leytenant Almaz Mirsixanov birinci, "Beyləqan" komandasının üzvü kiçik çavuş Fəhmin Nəsirov ikinci, Hərbi Polisin nümayəndəsi kiçik çavuş Fərid Sadıqov isə bu mərhələni üçüncü yerdə başa vurub.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbin bazasında keçirilən yarışın atış mərhələsində 200 metr məsafədən döş hədəfinə atəş açmaqda bütün silahdaşlarından daha çox xal toplayan Hərbi Hava Qüvvələrinin komandasının təmsilçisi baş leytenant Rüfət Səfərov birinciliyə nail olub. Ali Hərbi Məktəbin kursantı Rasim Hüseynov və "Bərdə" komandasının hərbi qulluqçusu kiçik çavuş Feruz Məmmədov isə ikinci və üçüncü yerləri bölüşüblər.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin bazasında təşkil edilmiş qumbaraatma



mərhələsi üzrə idmançılar sıra ilə hər birinə dörd qumbara olmaqla dörd dairəyə və uzağa üç qumbara atıblar.

Mübarizədə Ali Hərbi Məktəbin kursantı İsrafil Musayev birinci, Hərbi Hava Qüvvələrinin təmsilçiləri baş leytenant Rüfət Səfərov ikinci, kiçik çavuş Zamiq Teyyubov isə üçüncü yerə layiq görülüblər.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin üzgüçülük hovuzunda keçirilən maneələrlə üzmə mərhələsində kursant İsrafil Musayev birinci, Hərbi Hava Qüvvələrinin təmsilçiləri kapitan Adıköklü Xudeynatov və baş leytenant Rüfət Səfərov ikinci və üçüncü yerə çıxıblar.

Yarışın sonuncu mübarizə növü olan və Qaraheybət təlim mərkəzində keçirilən krossda isə komandalar arasında 8 km məsafəyə qaçış təşkil olunub. Bu mərhələdə "Şəmkir" komandasının təmsilçiləri çavuş Tural Məmmədov və kiçik çavuş Həsən Rəsulov birinci və üçüncü yerləri tutublar. İkinci yerə isə "Bərdə" komandasından əsgər Piriş Əhmədov layiq görülüb.

Yarışda iştirak edən kiçik komandalar arasında xal hesabına görə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin komandası birinci olub. Hərbi Polisin komandası ikinci, kəşfiyyatçıların komandası isə üçüncü olub.

Yarışların ümumi nəticələrinə görə fərdi göstəricilər üzrə sıralamada kursant İsrafil Musayev birinci, kapitan Adıköklü Xudeynatov ikinci, baş leytenant Rüfət Səfərov isə üçüncü olublar.

Hərbi beşnövçülük yarışlarının ümumi nəticələri üzrə komandalar arasında üçüncü yeri "Beyləqan", ikinci yeri isə Hərbi Hava Qüvvələrinin komandası tutub. Bütün komandaları qabaqlayan Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbin komandası kubokun sahibi olub.

Sonda qaliblər diplom, fəxri fərman və medallarla mükafatlandırılıblar.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**

## Hərbi texnikalar, silahlar

# “ИМР-3М” mühəndis maşını

Rusiya istehsalı olan “ИМР-3М” mühəndis maşını (maneələri dəfetmə maşını) ordunun və xalq təsərrüfatının mənafeyi naminə səmərəli olaraq müxtəlif yol və mühəndis işlərinin (tapşırıqlarının) həlli üçün universal maşındır. “ИМР-3М” mühəndis maşını nüvə və adi silah zərbələri nəticəsində dağıdılmış ərazilərdən qoşunların keçməsi, radioaktiv və zəhərli maddələrlə çirklənmiş yerlərdə tapşırıqların yerinə yetirilməsi, təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması, həmçinin atom elektrik stansiyalarında baş vermiş qəzanın aradan qaldırılması üçün nəzərdə tutulub. Maşın T-72 tankının bəzi hissələri əsasında hazırlanıb. Onun



gövdəsinin orta hissəsinə teleskopik ox bərkidilib.

Maşın vasitəsilə torpağı yumşaltmaq və qazmaq mümkündür. Bundan başqa maşın tral ilə də təchiz edilib. Maşında, həmçinin zenit-pulemyot qurğusu da quraşdırılıb. Pulemyot 2000 metrə qədər olan yerüstü hədəflərə, 1500 metrədək olan hava hədəflərinə qarşı atəş açmağa imkan verir. Maşından 60 metr məsafədə yerləşən minaları məhv etmək üçün də istifadə edilə bilər. “ИМР-3М” mühəndis maşınının heyəti iki nəfərdən ibarətdir. Maşının mina tralı ilə birlikdə çəkisi 49,5 tondur. Mühərriki (618 KVt) 840 at gücündədir. Sürəti saatda 60 kilometr, ehtiyat hərəkəti 500 kmdir, 2000 kiloqrama qədər yük qaldıra bilər.

**Hazırladı:**
**Svetlana YUSUBOVA**
**"Azərbaycan Ordusu"**

# İdman

## Boksçularımız beynəlxalq turnirdə 7 medal qazanıblar



Budva şəhərində gənc və yeniyetmə boksçular arasında beynəlxalq turnir keçirilib.

15 ölkənin qatıldığı yarışda Azərbaycan milli komandası da iştirak edib. Turnirə Vaqif Kazımovun rəhbərlik etdiyi yeniyetmələrdən ibarət yığma qatılıb. Budvaya 10 boksçu ilə yollanan komandamız 3 qızıl, 2 gümüş və 2 bürünc medala sahib olub. Millimizin 3 üzvü turnirin qalibi olub. Kənan Babayev (48 kq) finalda Gürcüstanı təmsil edən Oruc Əhmədovu, Məhəmmədəli Qasımzadə (54 kq) bolqarıstanlı Viktorio İliyevi, Sənan Hətəmov (63 kq) ukraynalı Oleq Sapijakı məğlub edərək qızıl medala yiyələnib.

Digər təmsilçilərimiz Tofiq Quliyevlə (46 kq) Ziya Həsənov (66 kq) həlledici görüşdə məğlub olaraq ikinci yeri tutublar. Yığmamızın üzvləri İbrahim Zeynalov (50 kq) və Xaqani Quliyev (+80 kq) isə bürünc medalla kifayətləniblər.

## Parakarateçimiz Avropa çempionatının qalibi olub



Xorvatiyanın Poreç şəhərində parakarate üzrə Avropa çempionatı davam edir.

Millimizin üzvü Emliya Mitlinova finalda Vask Karmenə (Estoniya) qalib gələrək Avropa çempionu adına layiq görülüb.

Bununla da parakarateçilərimizin Avropa çempionatında qazandıqları medalların sayı 3-ə çatıb.

Qeyd edək ki, müxtəlif kateqoriyalarda yarışan idmançılarımızdan Sahib Əhədov və Eldar Əhmədov bürünc medal qazanıblar.

## Azərbaycan qılıncoynadanı Rusiyada keçirilən turnirdə gümüş medala sahib olub



Azərbaycan qılıncoynadanı Rusiyada keçirilən turnirdə gümüş medala sahib olub.

Sablya üzrə qadınlardan ibarət milli komandamızın üzvləri Anna Başta, Səbinə Kərimova və Sevil Bünyatova Sankt-Peterburqda keçirilən Ümumrusiya açıq turnirində iştirak ediblər.

Qrup mərhələsini dörd qələbə ilə başa vuran Anna Başta pley-offda da uğurlu çıxışı ilə yadda qalıb. Rusiyanın güclü sablyaçılarının yarışdışları turnirdə A.Başta finalda Olqa Nikitinaya 6:15 hesabı ilə uduzaraq turnirin gümüş medalına layiq görülüb. Qrup mərhələsini uğurla adlayan Səbinə Kərimova və Sevil Bünyatova isə mübarizəni pley-offda dayandırıb.

## Paralimpiyaçı ağır atletimiz dünya kuboku turnirində bürünc medal qazanıb

Azərbaycan Milli Paralimpiya Komitəsinin pauerliftinq üzrə milli komandasının üzvü Nurlan Babacanov (97 kq) Tbilisidə keçirilən ağır atletika üzrə dünya kuboku turnirində bürünc medala sahib olub.

"Tokio-2020" Yay Paralimpiya Oyunlarında iştirak üçün reytinq xalları qazandıran turnirdə idmançımız 190 kiloqram nəticə göstərib.

**AZƏRTAC-ın**
**materialları əsasında**

Kapitan Hüseynalıyev Hüseynalı Vidadi oğluna məxsus MN № 0041378 nömrəli zabitin şəxsi vəsiqəsi, leytenant Ədilov Vladik Mehdi oğluna məxsus MN № 0058529 nömrəli zabitin şəxsi vəsiqəsi, baş gizir Quliyev Kazım Vəli oğluna məxsus SQ № 0008556 nömrəli şəxsi vəsiqə və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Ağayev Cavid Mirzəddin oğluna məxsus AD № 0042535 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor vəzifəsini icra edən** kapitan Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 290
Nüsxə 4050